2
2015

# GÖYƏRÇİN

İSSN-0207-4710



Mahnı sovqatı




**Musiqi: Rəşid Şəfəq**
**Söz: Rafiq Yusifoğlu**

# XOCALI ŞƏHİDLƏRİNƏ

Biz urcah olduq çaqqala,
Düşsək də bəbir izinə.
Bəsdir bu dərdə dözdüyün,
Namərdin tüpür üzünə!

Neçə-neçə kəndim yanıb,
Düşmən marıqda dayanıb.
Odlu bir nifrət oyanıb,
Qəlbimdə "səbir" sözünə.

Köksümüzdən vurulmuşuq,
El içində xar olmuşuq.
Biz ölmüşük, qırılmışıq,
Həsrətik qəbir üzünə...

Qan ağlayan nəmli gözlər
Nə qədər yerə baxacaq?
Allah, mənim ürəyimdən
Bu tikan nə vaxt çıxacaq?

Qələm titrəyir əlimdə,
Göynəyir bağrımın başı.
Qaldırmağa oğul gərək
Kirpikdən asılan daşı.

Hər papaqlı layiq deyil,
Kişi adı daşımağa!
Biz almasaq bu qisası,
Haqqımız yox yaşamağa!